HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

15 iyul 2016-cı il
№013 (27)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## İSTANBULDA YUNESCO ÜMUMDÜNYA İRS KOMİTƏSİNİN 40-CI SESSİYASI KEÇİRİLİR




İyulun 11-də İstanbulda YUNESCO Ümumdünya İrs Komitəsinin 40-cı sessiyası işə başlayıb.

İyulun 20-dək davam edəcək sessiyada Ümumdünya İrs Siyahısında qeydiyyata alınan 1031 bölgədən 156-sının qorunma vəziyyəti ilə bağlı hesabatlar nəzərdən keçiriləcək. Təhlükə altında olan bölgələrin mövcud vəziyyəti müzakirə olunacaq və Tentativ Siyahıya baxılacaq.

Ümumdünya İrs Siyahısına 29 yeni nominasiya faylı təqdim edilib. Sessiyaya üzv və tərəfdaş dövlətlərin nümayəndələri, YUNESCO-nun rəhbərləri, YUNESCO məşvərətçi orqanlarının rəsmiləri, mədəni və təbii irs üzrə ekspert və alimlərdən ibarət iki min iştirakçı dəvət olunub.

Komitənin bu sessiyası son zamanlar münaqişə regionlarında mədəni irsə qarşı artan dağıdıcı fəaliyyətləri pisləyərək, üzv ölkələri bu kimi təcavüzkar və vandalizm fəaliyyətlərinin qarşısının alınmasında sıx əməkdaşlıq etməyə çağırıb.

Komitənin açılış mərasimində Türkiyə baş nazirinin müavini Numan Kurtulmuş, YUNESCO-nun baş direktoru İrina Bokova, Türkiyənin mədəniyyət və turizm naziri Nabi Avcı və b. çıxış edərək mədəni irsin və tarixi abidələrin bəşəriyyətin ən vacib dəyərlərindən olduğunu və onları birlikdə qorumağın əhəmiyyətini qeyd ediblər.

## ATƏT PA QARABAĞDAKI VƏZİYYƏTDƏN NARAHATDIR

ATƏT PA-nın deputatları Dağlıq- Qarabağ münaqişəsi zonasında hərbi eskalasiya ilə əlaqədar narahatlıqlarını ifadə ediblər. Bu barədə iyulun 5-də Tbilisidə öz işini başa çatdıran ATƏT PA-nın illik sessiyasının nəticələri üzrə qəbul edilən sənəddə – Tbilisi bəyannaməsində qeyd olunub.

ATƏT PA-nın deputatları “danışıqlara əsaslanan mövcud format və mexanizmlər çərçivəsində ATƏT regionunda uzunsürən münaqişələrin siyasi həllinin axtarışında ATƏT sədrliyinin fəal iştirakını” alqışlamışlar.

Sənəddə “Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatların yenilənməsi riskini azaltmaq və inamı möhkəmləndirmək üçün razılaşmaya nail olunması sahəsində addımlar atılmasında iştirak etmək, Minsk qrupu çərçivəsində tənzimləmə haqqında hərtərəfli razılaşmanın əldə olunması üçün bütün tərəfləri siyasi iradə nümayiş etdirməyə həvəsləndirməyə” çağırış öz əksini tapıb.

Deputatlar habelə “qaçqınlar və daxili köçkün şəxslər probleminin həll olunmasında daha cəsarətli siyasi iradə nümayiş etdirməyə” çağırıblar.

2 DOLMANIN GÜNDƏM MÖVZUSUNA ÇEVRİLMƏSİ
3 SAXTA QURTARICILARIMIZI ÖZÜMÜZ YARATMAYAQ
4 SÜSƏN-SÜNBÜL SOFİSTLƏRİ (ritorika)
5 KÖNTÖYLÜK SELİ QARŞISINDA DÜŞÜNCƏLƏR
6 GÜRCÜ SERİALLARI GÜNÜ-GÜNDƏN İNKİŞAF EDİR

## TBİLİSİDƏ ATƏT PA-NIN 25-Cİ YUBİLEY SESSİYASI KEÇİRİLİB




Paytaxt Tbilisidə ATƏT Parlament Assambleyasının 25-ci sessiyası keçirilib.

Sonra plenar iclas işə başlayıb. Assambleyanın sədri İlka Kanerva tədbiri açdıqdan sonra Gürcüstan parlamentinin sədri David Usupaşvili, Prezident Georgi Marqvelaşvili, Baş nazir Georgi Kvirikaşvili çıxış ediblər. Onlar ATƏT PA-nın 25-ci sessiyasının Gürcüstanın dövlət müstəqilliyinin 25-ci ildönümü ilə üst-üstə düşməsini yüksək qiymətləndiriblər. Çıxışlarda ATƏT-ə üzv ölkələrin inkişafında, Avropada, Cənubi Qafqazda, ümumiyyətlə bütün dünyada mövcud olan münaqişələrin həllində təşkilatın rolundan bəhs edilib. İclasda Almaniyanın xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Frank-Valter Ştaynmayer də giriş nitqi ilə çıxış edib.

“Parlament əməkdaşlığının 25 ili: dialoq vasitəsilə etimadı gücləndirərək” mövzusuna həsr olunan sessiya çərçivəsində daimi komitənin iclası keçirilib. İclasda təşkilatın gündəliyi, maliyyə məsələləri, bəzi sənədlərə dəyişikliklər müzakirə olunub.

57 iştirakçı dövlətin nümayəndələri iyulun 1-dən 5-dək beynəlxalq təhlükəsizlik və regional münaqişələrin sülh yolu ilə həll olunması məsələlərini müzakirə ediblər.

## ATƏT PA “GÜRCÜSTANDA MÜNAQİŞƏLƏR” QƏTNAMƏSİNİ TƏSDİQLƏDİ

ATƏT Parlament Assambleyası gürcü nümayəndə heyətinin hazırladığı “Gürcüstanda münaqişələr” qətnaməsini təsdiqləyib.

Plenar sessiyada həmçinin 122 səs lehinə və 6 səs əleyhinə olmaqla ATƏT-in Tbilisi bəyannaməsi təsdiqlənib.

Gürcüstan parlamentinin sədri David Usupaşvilinin müəllifliyi altında hazırlanmış 19 maddədən ibarət qətnamə layihəsi ATƏT PA-nın siyasi məsələlər üzrə komitəsinin iclasında müzakirə edilmişdir.

“Gürcüstanda münaqişələr” adlı qətnamədə əsas diqqət ölkənin işğal olunmuş ərazilərində Rusiyanın fəaliyyətinə yönəldilib və qeyd edilib ki, Rusiya Federasiyası beynəlxalq hüquq normalarını pozmaqda davam edir və 12 avqust 2008-ci il tarixli atəşkəs haqqında razılaşmaya etinasızlıq göstərir.

Bundan başqa qətnamədə Parlament Assambleyası ATƏT-i təşkilatın Gürcüstana daxil olmasını gücləndirməyə, münaqişələrin sülh yolu ilə tənzimlənməsində rolunu artırmağa, inamın artırılması üzrə yerlərdə layihələr həyata keçirməklə barışıq prosesinə kömək etməyə çağırır.

## AVROPA PARLAMENTİ GÜRCÜSTAN, UKRAYNA VƏ KOSOVOYA VIZALARI LƏĞV EDİR



Strasburqda Avropa Parlamentinin (AP) Xarici Əlaqələr Komitəsinin toplantısı keçirilib. Toplantıda Komitə Gürcüstan, Ukrayna və Kosovanın viza sərbəstliyi üçün tələb olunan şərtləri yerinə yetirdiklərini və tezliklə Avropa Birliyi ölkələrinə vizasız səyahət edə bilən ölkələr siyahısına əlavə olunmaları istiqamətində fikir bildirib.

Xarici Əlaqələr Komitəsinin hesabatı AP Mülki Azadlıqlar Komitəsinə göndəriləcək və sentyabr ayında burada müzakirə olunub qiymətləndiriləcək. Ukrayna, Gürcüstan və Kosovoya viza sərbəstliyi qərarının bu il ərzində çıxması gözlənilir.

# DOLMANIN GÜNDƏM MÖVZUSUNA ÇEVRİLMƏSİ

***Dadanıbsan dolmaya, o da bir gün ola, olmaya. Yarpaq dolması, badımcan, bibər, pomidor – işıqfor dolması, canım sənə desin kələm dolması, alma, kartof dolması, belə yalançı dolma, saymaqla qurtarandımı ki, bu zalım oğlunun dolma çeşidi. Evi tikilmişin adamları oturub-durub əlinə keçənin içini doldurub, əti büküb əlinə keçənə, adını da qoyub dolma. Azərbaycan Milli Kulinariya Mərkəzinin sədri Tahir Əmiraslanov Azərbaycanda 300-ə yaxın dolma növü olduğunu bildirib.***

Qonşumuz ermənilər də deyir dolma binayi-qədimdən ermənilərin icad elədiyi bir zaddır, qonşu xalqlar da onu zorla öznünküləşdiriblər və ya öznünküləşdirmək iddiasındadırlar. Mən az qala ermənilərin bu iddialarına haqq qazandırmaq istəyirəm ki, burada Allah saxlasın nə var, bir xörəkdir qoy bu da olsun ermənilərin. Amma andır bir şeytan balası səhərdən məni qıdıqlayır ki, müəllim, nə olar, balalarını Allah saxlasın, bir o axçi Haykanuşdan, bir o Mesrop dığadan xəbər al, soruş görək ermənilər bu dolma zəhrimarı miladdan öncəmi icad ediblər, yoxsa miladdan sonramı. Bir də sənə zəhmət onlardan soruş görək, bu dolma zəhrimarı icad edən ermənilər nədən bu gül kimi təamın adını türkcə qoyublar, göz-zad ha dəyəsi deyildi onların icadına. Və erməni dili bir xörəyin adını ifadə edə bilməyəcək qədər zəif dildimi ki, bu heyvərəlikdə icadın adını nifrət bəslədikləri türklərin dilindən alınan bir sözcüklə ifadə etməli olublar? Düzü, mən bu qədər xırda şeylərə baş qoşası adam da deyiləm, amma neyləməli, hərdən adam şeytanın da sözünə qulaq asmalı olur. Bu yerdə böyük Seyid Əzim Şirvaninin adı rəhmətlə anılmalıdır, ya yox, buna özünüz qərar verin.

Düzünü söyləyim ki, minlərlə xəbər arasında gözümə Tbilisidə "Tolma-2016" müsabiqə-festivalın sataşması ilə bir bu xəbərə baxım hökmünü verməm arasında elə də böyük zaman fərqi olmadı. Açdım, baxdım ki, iyulun 10-da Tiflisdə fısqırıq "Dolma" festivalı keçirilir. Bizim milli mətbəximizin əvəzolunmaz təamı olan dolmanın ermənilərin icadı olduğunu düzü mən elə bu xəbərdən öyrəndim. Amma "Mimino" filmində o vaxt bir balaca qulağıma dəymişdi, deyəsən. Və az qala ayağımın altından yer qaçdı ki, bu qədər yaşın ola, ilin hər fəslində sevə-sevə yeyəsən, bilməyəsən ki, ağzına dad, qoluna təpər verən dolmanın təkcə adı bizim imiş. Texnolojisi, doldurulması, bükülməsi, bişirilməsi, servis edilməsi ermənilərə məxsus imiş ki, mən də bundan xəbərsizəmmiş. Lənətə gəlmiş şeytan da yadıma salmayıb bunu. Yoxsa qoyardımmı, indiyə qədər bir yerdə balaca da olsa bir şey guppuldadardım, gedərdi.

Xəbərdən qulluğunuza bir yağlı cümlə ərz edib sonra fikrimə davam etmək niyyətindəyəm: "Erməni tolması (qaralar – A. M.) "Tolma-2016" festival-müsabiqəsi Tbilisidə dalbadal dördüncü ildir keçirilir". Vallah, yenə də fikir verməzdim, deyərdim keçirirlər, qoy keçirsinlər, dolma da qoy onların olsun. Burda səs-küy salmalı nə var, bir xörəkdir, nə böyük şeydir, qonşuluqdur verək getsin, dünya ha dağılmayacaq. Bircə onu demək istəyirəm ki, ermənilər türkcəmizi bəzən bizdən də yaxşı bilirlər, dilimizi dəfələrlə tədqiq ediblər.. Mən bunları danası ha deyiləm. İndi dolmanı erməniləşdirmək istəyənlərə üzümü tutub soruşuram, siz heç qədim və elə müasir türkcə lüğətlərə-sözlüklərə baxmadınızmı ki, bu dolma zəhrimar türkcədəndir? Axı sizin "tolma" (türk dillərində bu variant da işləkdir), bizim "dolma" dediyimiz bu xörək adı bir çox türk dillərində cüzi fonetik fərqlə çox geniş bir coğrafiyada yayılıb. Və yenə də şükürlər olsun ki, həmin sözün yayıldığı ərazilər sizin cəfəng "Böyük Ermənistan" iddianızın sərhədlərindən kənarda qalır. Bəlkə mənim xəbərim yoxdur, siz növbəti çərənləmələrinizdə Qıpçaq çöllərini də "Böyük Ermənistan"a aid edəcəksiniz?

Elə bu söz sizin növbəti bir yalana imza atdığınızdan xəbər vermirmi? Sizin növbəti dəfə dünyanın gözünə kül üfürmək istədiyiniz ki, açıq-aşkardır? Sizin özünüzə çıxmaq istədiyiniz lavaş əhvalatı yadıma düşməsəydi, yenə də dillənməzdim, bir dolmadan ötəri bu qədər səs-küy qaldırmağın əbəs olduğunu düşünərdim. Amma nə yazıq ki, mən dillənmədikcə sən növbəti bir iddianla ortaya düşürsən və dünyanı növbəti bir yalanına inandırmaq istəyirsən. Mən ölüm, öz aramızda qalacaq, növbəti iddian nə olacaq, söyləsənə?

Yalanı da danışanda gərək elə danışasan ki, inandırıcı görünə. Bir neçə il qabaq lavaşı qeyri-maddi mədəni irs şəklində erməni çörək çeşidi kimi YUNESKO-nun siyahısına saldırdınız. Nə oldu? Cəmi bir gündən sonra lavaş erməni çörəyi kimi o siyahıdan çıxarılmadımı və siz suyu süzülə-süzülə qalmadınızmı? Deyəsən, siz heç düz əməlli yalan da quraşdıra bilmirsiniz axı? Amma, deyəsən, yanılan yenə mənəm. Siz indi də bunu başqa – "Ermənistanda lavaş" adı altında dünyaya sırımaq istəyirsiniz. Daha mənim sizə deyəcək sözüm qalmadı...

**P.s.**

***Oxucularımızın yerində verə biləcəyi bəs biz nə vaxt bir "Dolma" festivalı düzənləyəcəyik sualına cavab olaraq deyim ki, iyulun 1-də Azərbaycanda I Beynəlxalq dolma festivalı keçirilib. Xəbəri qəzetimizin bu sayında oxuya bilərsiniz.***

Afiq MUXTAROĞLU

# PAPANIN GÜRCÜSTANA VƏ AZƏRBAYCANA SƏFƏR PROQRAMI ELAN OLUNDU

İyulun 11-də Roma papası Fransiskin sentyabrın 30-dan oktyabrın 2-dək Gürcüstana və Azərbaycana səfər proqramı elan edilib. Məlumat Roma papasının mətbuat xidməti tərəfindən yayılıb.

Tbilisiyə ikigünlük səfəri zamanı papa Gürcüstan prezidenti Georgi Marqvelaşvili, Bütün Gürcüstanın katalikos-patriarxı II İlya, assur-haldey və katolik icmasının nümayəndələri ilə, habelə katolik xeyriyyə təşkilatlarının əməkdaşları ilə görüşlər keçirəcək. Oktyabrın 1-də Mixail Mesxi adına stadionda messa ibadətini icra edəcək, sonra isə Gürcüstanın əsas dini mərkəzlərindən biri olan Msxetadakı Svetisxoveli məbədinə baş çəkəcək.

Papa Fransisk oktyabrın 2-də Azərbaycana yollanacaq. Onun Bakıya səfəri messa ilə başlayacaq. Sonra papanın Azərbaycan prezidenti İlham Əliyevlə, Qafqaz müsəlmanlar idarəsinin rəhbərliyilə, Rus pravoslav kilsəsinin nümayəndələri və yəhudi icması ilə görüşləri nəzərdə tutulub.



Həmin gün axşam Roma katolik kilsəsinin başçısı Vatikana qayıdacaq.

Hələ apreldə elan edilmişdi ki, Roma papası Bütün Gürcüstan katalikos-patriarxı II İlyanın, eləcə də hər iki ölkənin mülki və dini hakimiyyətinin dəvətilə Gürcüstana və Azərbaycana səfər edəcək.

Xatırladaq ki, cari ilin iyun ayında papa Fransisk Ermənistana səfər etmişdi.

# NATO-NUN BAŞ KATİBİ GÜRCÜSTANA GƏLƏCƏK




NATO-nun baş katibi Yens Stoltenberq Şimali Atlantika şurasının iclasında iştirak etmək üçün 2016-cı ilin sentyabrında Gürcüstana gələcək.

Bu barədə alyansın rəhbəri Varşavada NATO sammiti çərçivəsində keçirdiyi mətbuat konfransında məlumat verib.

"Mən payız Şimali Atlantika şurasının tərkibində Gürcüstana səfər edəcəm. Bu bir daha bizim Gürcüstanı güclü şəkildə dəstəklədiyimizi, onun ərazi bütövlüyünü və üzvlüyə gedən yolda islahatlar keçirən Gürcüstanı dəstəklədiyimizi göstərir", – Stoltenberq əlavə edib.

Xatırladaq ki, bu ərafədə NATO-Gürcüstan Komissiyasının iclasında tərəflər birgə bəyanat veriblər.

On maddədən ibarət sənəd 2016-cı ilin sentyabrında Tbilisidə Şimali Atlantika şurasının sessiyasının keçirilməsini də nəzərdə tutur.

# ABŞ DÖVLƏT KATİBİ CON KERRİ TBİLİSİYƏ SƏFƏR EDİB

ABŞ-ın dövlət katibi Con Kerri iyulun 6-da Tbilisiyə səfər edib. Onun Gürcüstan rəhbərliyi ilə danışıqları və müxalifət liderləri ilə görüşü baş tutub.

Gürcüstan baş naziri Georgi Kvirikaşvili ilə birlikdə ABŞ dövlət katibi Gürcüstan və ABŞ arasında strateji əməkdaşlıq Xartiyasının iclasını keçirib. 2009-cu ilin yanvarında imzalanmış xartiyanın demokratiya, müdafiə və təhlükəsizlik, iqtisadiyyat və xalqlar arasında münasibətlər kimi əsas istiqamətləri müzakirə olunub.

ABŞ dövlət katibi Gürcüstan prezidenti Georgi Marqvelaşvili və xarici işlər naziri Mixail Canelidze ilə də görüşüb.

ABŞ dövlət katibinin Vahid Milli Hərəkat və Müstəqil Demokratlar müxalifət partiyalarının liderləri ilə də görüşdüyü yayılan xəbərlər arasındadır.

ABŞ dövlət katibi Con Kerri iyulun 7-də Gürcüstandakı işgüzar səfərini başa çatdırdıqdan sonra Ukraynaya yola düşüb.

# AZAD SƏNAYE ZONASINDA TÜRKİYƏ VƏ PAKİSTAN MÜƏSSİSƏLƏRİ İŞLƏYƏCƏK



Tbilisi azad sənaye zonasında (ASZ) tezliklə Türkiyə və Pakistan toxuculuq məhsulları istehsalçıları işə başlayayacaqlar. Yeni 6000 kv. m sahəsi olan müəssisənin tikintisi də planlaşdırılır. Məlumatı "Gorcian teknolojik park" şirkətinin direktoru Georgi Tabatadze verib.

Onun sözlərinə görə, əcnəbi əczaçılıq şirkətləri ilə ASZ-də müəssisə açmaq məqsədilə danışıqlar aparılır.

Tabatadze bəyan edib: "Yaxınlarda ASZ-də 4-6 ay davam edəcək infrastruktur işləri həyata keçiriləcək. Bundan sonra sərmayəçiləri cəlb etmək daha asan olacaq. Zonanın infrastrukturuna 2,2 milyon lari xərclənəcək. Hazırda Tbilisi ASZ-ə 28 milyon dollar sərmayə qoyulub. 2030-cu ilədək 20 milyon, 2055-ci ilədək isə 10 milyon investisiya yatırmaq planlaşdırılır". O, hazırda ASZ-də 95 nəfərin işlədiyini bildirib.

ASZ Gürcüstan hökumətinin qərarı ilə 2015-ci ildə yaradılıb. Sahəsi 17 hektardan ibarətdir və 49 il müddətinə güzəştlə istifadə olunacaq.

Zonanın təşkilatçısı və idarəedicisi "Bitfyuri" kompaniyasının törəmə şirkəti "Gorcian teknolojik park"dır. Zonaya qoyulacaq sərmayə 100 milyon dollar təşkil edəcək.

# SAXTA QURTARICILARIMIZI ÖZÜMÜZ YARATMAYAQ

***"Elə bir zaman gələcək ki, avam xalq Quran oxuyacaq, özünü ibadətə verəcək (lakin) bidət əhlinin işləri ilə məşğul olacaqlar; hiss etmədikləri yerdən şirkə düşəcəklər. Söz və elmləri vasitəsiylə ruzi əldə edəcəklər, dini alət edərək dünyalıq əldə edəcəklər. Bax, bir gözü kor dəccalın köməkçiləri bunlardır"*** (Râmûz-u l Ehâdîs, Hədis Nömrə: 6255)

Peyğəmbərimiz (s.ə.s.) bu hədisi şərifində axır zamanda bir sıra insanların dinə xurafat və bidət soxan bəzi kəslərə uyğun gələcəklərindən bəhs edilməkdədir.

Elə zamanımızda bəzi saxtakar müəllimlər var ki, İslam dinini insanlara elə səhv təbliğ edirlər ki, bir çox adam anladılan bu yalanları dinin əsasıymış kimi zənn edir. Bu səbəblə də şirkə düşdüklərini, dinin əslindən uzaqlaşdıqlarını hiss etmirlər.

Bu saxtakar müəllimlərin başqa bir xüsusiyyəti də dini alət edərək qazanc əldə etmələridir. Yəni bir Müsəlman olaraq dini xidmətdən heç bir ödəniş tələb etməmələri lazım olduğu halda "İşdə o peyğəmbərlər Allahın hidayət etdiyi kəslərdir. Sən də onların yoluna uy. De ki: mən buna (peyğəmbərlik vəzifəmə) sizdən bir ödəniş tələb etmirəm. Bu (Quran) aləmlər üçün ancaq bir nəsihətdir (Ənam, 90) əxlaqına uyğun davranmırlar. Peyğəmbərimiz (s.ə.s.), bu zehniyyət içində olan şəxslərin axır zamanda din əxlaqına qarşı döyüş açmış olan dəccal sisteminin xidmətində olacaqlarını da xəbər vermişdir. Bilindiyi kimi Peyğəmbərimiz (s.ə.s.) digər bir hədisində də axır zamanda bəzi sözdə alimlərin dəccalın əmrinə girəcəyini bildirmişdir:

" Ümmətimdən başı sarıqlı, yetişmiş min alim dəccala tabe olacaq"(İmam Əhməd Min Hənbəl, Müsned, sf. 796)

Bu hədislər müsəlmanların şövqünü qırmağa çalışaraq, dində olmayan, xurafat və bidətləri dinə aidmiş kimi göstərərək və fitnə çıxararaq dəccal sistemini dəstəkləyən, Quran əxlaqından uzaq, dini öz mənfəətləri üçün istifadə etmə məqsədi daşıyan, İslam əxlaqının hakim olmasını istəməyən pis niyyətli, sözdə din adamlarının varlığını açıq bir şəkildə xəbər verməkdədir.

O insanların yalançı peyğəmbər olduqları hardan bilinir deyə sual oluna bilər:

1-Şöhrət və güc axtarışındadırlar.

2-Ədalət və əxlaqı təməl alan bir təlimləri yoxdur.

3-Kahinlik və gözbağlayıcılıq ilə məşğuldurlar.

4-Dara düşdüklərində onlara köməyə gələn yoxdur. Ancaq bəzi qəbilələr yalançı peyğəmbər öz qəbilələrindəndir deyə dəstəkləyirlər. Belə bir mühitdə faşizmin vəziyyətini görə bilməkdəyik. Halbuki Hz. Məhəmməd (s.ə.s)-ə ən böyük düşmənliyi göstərənlərdən biri Əmisi Əbu Ləhəb, ən böyük dostluğu və sevgini göstərənlərdən biri də Zeyddir. Buna görə Quran yalnız bu iki adı Hz. Məhəmmədin ətrafı içindən seçib adlarıyla xatırlayır.

Günümüzün saxta peyğəmbərləri və mehdiləri o qədər çoxdur ki, saymaqla bitməz. Qurandan qopuq yaşayan xalqımız saxta, yalançı insanların yalanlarıyla illərdir əziyyət çəkirlər. Quran rəhbər kitab olmaqdan çıxardılıb. Quranın yerinə özlərini qoyan bu yalançılar peyğəmbərlikləri bir şəkildə camaatlarına inandırmaqdadırlar.

Qurana qarşı olan bir çox hədislər uydurmuşlar.

Bax bu cür insanlardan xilas olmaq üçün saxtayla gerçəyi anlamaq üçün Quranı yaxşı oxumaq lazımdır.

Bir müsəlman yaxşı bilməlidir ki, "Quran oxunmadan həyat oxunmaz."

Bunu etməsək bizi daha çox aldadarlar. Allah adına, Quran adına, peyğəmbər adına, şeyx adına, mehdi adına, tarix və ya məzhəbçilik adına türklər demişkən hamımız nanəni yeyərik.

**Kamal Sunal filmlərində olduğu kimi saxta qurtarıcıları özümüz yaratmamalıyıq.**

Hacı BƏKİROĞLU

# ÖZ ÖLKƏSİ ÜÇÜN VURUŞMAĞA HAZIR OLANLAR ARASINDA AZƏRBAYCAN 6-CI, GÜRCÜSTAN 9-CU YERİ TUTUR




Vətəndaşlarının öz ölkələri uğrunda döyüşməyə hazır olduğu ölkələr arasında Azərbaycan 6-cı, Gürcüstan isə 9-cu yeri tutur.

Bu barədə ABŞ-ın beynəlxalq araşdırma mərkəzi olan "Gallup"un keçirdiyi sorğunun nəticələri məlumat verir.

Sorğuda iştirak etmiş Azərbaycan əhalisinin 85%-i öz ölkəsi uğrunda vuruşmağa hazır olduğunu bəyan edib.

Sorğu siyahısına 94%-lik göstərici ilə Mərakeş başçılıq edir. Siyahının ilk beşliyini əhalisinin 94%-inin öz ölkəsi uğrunda vuruşmağa hazır olduğu Fici davam etdirir. Pakistan və Vyetnam əhalisinin 89%-i, Banqladeş əhalisinin isə 86%-i belə bir arzuda olduğunu bildirib.

Sorğunun nəticələrinə görə Gürcüstan 76%-lə 9-cu, Ermənistan 72%-lə 15 sırada qərarlaşıb.

Türkiyə 73%-lə 12-ci, ABŞ 44%-lə 39-cu, Rusiya isə 59%-lə siyahının 27-ci pilləsini tuta bilib.

63 ölkədə keçirilmiş sorğunun nəticələrinə görə, sonuncu yeri 11%-lə Yaponiya tamamlayır.

Sorğu siyahısının yuxarı pillələrini əsasən müsəlman ölkələri, aşağı pillələrini isə Avropa ölkələri tuturlar.

# GÜRCÜSTAN SOSİAL TƏRƏQQİ İNDEKSİ ÜZRƏ 54-CÜDÜR

Gürcüstan sosial tərəqqi indeksi üzrə 54-cü yeri tutur. Tədqiqat çərçivəsində ölkələr digər meyarlar üzrə də qiymətləndirilir. Ölkəmiz rifahın təməli indeksində 61-ci, perspektivlərin mövcudluğu üzrə 64-cü, əsas insan ehtiyacları üzrə 49-cu yeri tutur.

Sosial tərəqqi indeksi (The Social Progress Index) beynəlxalq tədqiqat layihəsi olan The Social Progress Imperative-in kombinasiya edilmiş göstəriciləridir. İndeks dünya ölkələrinin uğurlarını onların sosial inkişafı nöqteyi-nəzərindən müəyyənləşdirir.

Gürcüstan dini azadlıq, həyati seçim azadlığının da daxil olduğu şəxsi azadlıq və seçki meyarlarında aşağı mövqedədir. Habelə Gürcüstan tolerantlıq – dini, seksual və miqrantlara münasibət nöqteyinəzərindən kifayət qədər aşağıdadır.

Əhalinin adambaşına gəlirlərinə görə ölkəmiz 84-cü yerdədir.

Gürcüstan ali təhsilin mümkünlüyünə görə 45 reytinq balına malikdir ki, bu da aşağı göstəricidir. Bu meyar universitetlərin reytinqini və məktəblərdə qızların orta yaş göstəricisini əhatə edir.

Ölkəmiz təhlükəsizlik məsələlərində, yetkinlik yaşına çatmış şəxslərin məlumatlılığı və ali təhsil müəssisələrinə tələbələrin qəbulu üzrə orta göstəricidə yüksək qiymətə malikdir.

Xatırladaq ki, keçən il ölkəmiz bu reytinqdə 133 ölkə arasında 60-cı olmuşdu.

# İVANİŞVİLİ 200 MİLYON LARİ DƏYƏRİ OLAN KONSERT SALONUNU DÜVLƏTƏ BAĞIŞLADI

Gürcüstanın Qara dəniz sahilində yerləşən Şekvetili kəndində 200 milyon dəyəri olan gürcü milyarderi, keçmiş baş nazir Bdzina İvanişvilinin tikdirdiyi "Black Sea Arena" konsert salonunun rəsmi şəkildə dövlətin mülkiyyətinə keçirilməsi mərasimi baş tutub.

Hədiyyənin rəsmi qəbul olunması mərasimində iştirak edən Gürcüstanın baş naziri Georgi Kvirikaşvili öz çıxışında İvanişvilinin ünvanına xoş sözlər söyləyərək, ictimaiyyətə onun "misilsiz xeyriyyəçiliyini" və "Vətən qarşısındakı xidmətlərini" xatırladıb.

Baş nazir qeyd edib: "Əməli olaraq bu, regionun inkişaf layihəsidir. Bu Qara dəniz sahili üçün mühümdür. Belə miqyaslı layihənin köməyi ilə turizm böyüyəcək. Xarici və yerli sərmayəçiləri cəlb etmək mümkün olacaq ki, bu, biznesin inkişafı üçün böyük stimuldur".

Onun sözlərinə görə, konsert salonu Gürcüstan vətəndaşlarını və xarici qonaqları qəbul etməyə hazırdır. Salon bütün beynəlxalq standartlara cavab verir, müasir texnika ilə təchiz olunub, 10 min tamaşaçı üçün nəzərdə tutulub. Salon təhlükəsizlik standartları üzrə layihələşdirilib. Layihəni "Drei Architekten" alman şirkəti həyata keçirib.

Baş nazir bu kompleksin çox sayda iş yeri demək olduğunu da vurğulayıb. O, bildirib ki, konsert salonunun yaxınlığında yeddiulduzlu mehmanaxana da tikiləcək, bu isə turizmin inkişafı üçün daha bir obyekt deməkdir.

# GÜRCÜSTANDA TÜRK AVİAŞİRKƏTİ YARANIR

Türkiyənin "Rey Airlines" aviasiya şirşəti Gürcüstan bayrağı altında aviakompaniya yaratmaq və Batumi beynəlxalq hava limanından müxtəlif istiqamətlərə uçuşlar həyata keçirmək niyyətindədir.

"TAV Georgia"nın verdiyi məlumata görə, "Rey Airlines" Tbilisi və Batumi beynəlxalq aeroportlarının "TAV Georgia" operator şirkətinin vasitəçiliyi ilə Mülki Aviasiya Agentliyi və Milli Turizm idarəsinin rəhbərliyi ilə danışıqlar aparmaq fikrindədir.

# KVEMO KARTLİDƏ MUSİQİ FESTİVALI KEÇİRİLİB



Kvemo Kartlidə baş tutan "Başqa Gürcüstan harada var" gürcü musiqisinə həsr edilən müsabiqə-festival bir müddət əvvəl qala konsertlə başa çatıb. Festivala Marneuli bələdiyyəsi ev sahibliyi edib.

Gürcü ənənəvi musiqi festivalının final axşamında Kvemo Kartli qubernatoru Paata Xizanişvili ilə birlikdə Marneuli bələdiyyəsinin sədri Merab Topçişvili və Kvemo Kartlinin digər bələdiyyələrinin nümayəndələri iştirak ediblər. Mədəniyyət evinin səhnəsinə çıxan gənc ifaçılar məhşur gürcü bəstəkarların əsərlərini ifa ediblər.

Münsiflər heyəti üç yaş kateqoriyasında festivalın qaliblərini müəyyən edib. Zalqa sakini Mariam Kobaxidze festivalın baş mükafatına layiq görülüb. Müxtəlif nominasiyalarda ( "solo ifa" və "ansambllar") qaliblər müəyyənləşdirilib, diplom və hədiyyələrlə mükafatlandırılıblar.

Festivalda İzolda Kapanadzenin rəhbərlik etdiyi Kosalı ictimai məktəbinin şagirdləri Samirə Vəliyeva, Fidan Qaryağdiyeva, Pınar İsayeva, Aysel Xiyalova, Günel Xiyalova, Aysel Vəliyeva, Aidə Laxvanova və Aygün Ömərovanın iştirakçısı olduğu musiqi qrupu 3-cü yerə layiq görülüb.

Yekun konsertdə tanınmış gürcü bəstəkarı Vaja Azaraşvili, ifaçılar Tamar Goxonelidze, İrma Soxadze, Nuqzar Qvaşali iştirak ediblər. Layihə "Demos" ittifaqının təşəbbüsü, Şota Rustaveli adına teatr və kino universiteti təhsil mərkəzinin əməkdaşlığı və Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi nazirliyinin maddi dəstəyi ilə həyata keçirilib.

# SÜSƏN-SÜNBÜL SOFİSTLƏRİ
## (ritorika)

**Unudulmaz Nodar Dumbadzenin eyniadlı hekayəsinin qəhrəmanı ilə ad eyniliyi taskabab təsadüf olan Didroya yüz də de. Çünki Didroya dedin – divara dedin. Gör adaşı olan məşhur yunan mütəfəkkirinin-müdrikinin adını necə yaman günlərə qoyub! Mən deyirəm, o deyir. O deyir, Mirzə Qələm deyir... Aşıq Şəftək deyişirik.**

Didro iddialı-iddialı bizə belə qızır: “Sizdə sofistlər olmayıb, sizdə sufilər olub. Sofistlər bizdə – yəni qədim Elladada-Yunanıstanda olub.

Didro bəlli tarixi səbəblər üzündən Tiflis tərəfləri yurd yeri seçib, amma ruhu Elladadadır.

Onda mən Mirzə Qələmin köməyi ilə orda ayla, illə, burda müxtəsər dillə arazbarı uzaqlardan başlamalı oluram...

...natiqlik sənətinin vətəni olan qədim Ellada-Yunanıstanda (eramızdan əvvəl V əsrdə) məhkəmə zamanı prokuror yox idi; istənilən şəxs ittihamçı rolunda çıxış edə bilərdi. Müttəhim-təqsirkar da bundan yararlanaraq arada-sırada özü öz müdafiəçisi olurdu. Natiqlik istedadı ona imkan verirdi ki, təmizə çıxa bilsin. Əsas – bəlağətli, parlaq çıxışla xalq yığıncağını (məhkəmə açıq havada olurdu; müqəssir azad nəfəs ala bilərdi) inandırmaq lazım idi. Qarşısındakıları inandırmaq, sonra da biryolluq susdurmaq üçün həqiqətə oxşayan yalanlarla (Hüseyn Cavid demiş, yıldızlı yalanlarla), hiyləgər uydurmalarla danışırdı. Dediklərini aydın və gözəl deyirdi, o vaxtın məntiqi qaydalarına uyğun deyirdi. Onun doğrusu-düzü ancaq zahiri doğru, zahiri həqiqət olsa da... son olaraq qalib gəlirdi. Əsas – sözün doğru olmağı deyil, gözəl deyim tərzi idi! Müxtəsəri, o zamanlar sevgiliyə də sofizmlərlə könül açılırdı. Bəs necə bilmişdin?..

O dövr üçün elm-təlim hesab edilən sofistika (bizdə səfsətə), bu təlimin ilk pullu müəllimləri sayılan sofistlər ta Sokrat onları əsilsiz (saxta) müdriklər adlandırana qədər, hətta xeyli sonralar da aşqın-daşqın atlarını oynatdılar.

Bugünkü Yunanıstanın iqtisadi iflasının, ağlamalı günlərə qalmağının səbəbini qədim sofistikada, sofistlərdə görənlər indinin özündə də az deyil (Didronun qulaqlarından iraq).

Amma sözüm bunda olsaydı, dəbdəbə dərd yarıdı...

...sözə pərəstiş, sözün üstə az qala rəqs eləmək, nitqə zahiri bər-bəzək vermək, doğrunu-həqiqəti hər vasitə ilə pərdələmək, əvəzində saxtalara doğruluq donu geydirmək yavaş-yavaş qədim Yunanıstandan yaxın qonşulara, sonralar da uzaqlara gedib çıxmışdı. Amma qələm sahibi hər nə qədər “özününkü”nü pisləməkdən qaçsa da, səfsətənin (səfehləyən səfsətənin) Süsən-Sünbüldə bugünün özündə də kök saldığını... “deməsəm ölləm”...

Belə də işmi olar? Bunun şairi sofist, jurnalisti sofist, hərdən-birdən sofistlər kimi danışmaq anlamına gələn parlamentdəki təmsilçisi sofist, pafosu sofist, xoruzu, keçisi sofist, yenicə təyin edilmiş mollası – az qala yadımdan çıxmışdı – sofist...

Amma xoşbəxtlik (bəlkə də bədbəxtlik) burasındadır ki, Süsən-Sünbülün elə bircə şairi, bircə jurnalisti, bircə də... mollası var. Yoxsa o boyda püstədodaq pafosu, o boyda radioaktiv ritorikanı bu boyda Süsən-Sünbülə sığışdırmaqmı olardı?..

P.S.

Allahın Peyğəmbəri (s) deyib: “Adam səhəri açanda bütün bədən üzvləri dilin qarşısında baş əyərək xahişlə, yalvarışla deyərlər ki, bizim haqqımızda ilahi təqvaya riayət et. Çünki biz səndən asılıyıq, sən düz olsan biz də düzük, əyri olsan biz də əyri olarıq”.

...zarafat bir yana, amma Mirzə Qələmin də, elə Didronun da burunlarının əyriliyi dillərinin əyriliyindən deyil. Sizi inandırıram.

**Qalqı ki, sufini, sufiliyi (təsəvvüf – mənəvi həyat və əxlaqi dəyərlər) sofistlə, sofistika ilə qarışdırmamağa, bu gün dünyanın belə qatqarışıq qarışmağının yanında bu... bapbalaca səfsətə, söz oyunu deyilmi?..**

***...Argumentum ad hominem!***
***Və... Argumentum ad populum!***

İBRAHIMXƏLİL

# FRANSADA TERROR TƏHLÜKƏSİ ÇOX YÜKSƏKDİR



Nitsada terror təhlükəsinin səviyyəsi maksimumadək yüksəldilib. Bu barədə Fransa daxili işlər naziri Bernar Kaznev bəyan edib.

Onun sözlərinə görə, hakimiyyət təhlükəsizliyi təmin etmək üçün hər şeyi etsə də, Fransada terror aktları təhlükəsinin səviyyəsi çox yüksəkdir.

Nazir qeyd edib: “Bizə nəyin bahasına olursa olsun zərbə vurmaq istəyən terrorçularla müharibə vəziyyətindəyik”.

Son məlumatlara görə, Nitsada hücum nəticəsində 84 adam həlak olub. İyulun 14-də gecə saatlarında İngilis sahilində milli bayram – Bastiliyanın alınması gününü qeyd edilərkən, kütlənin üzərinə yük avtomobili sürülüb.

Sürücü zərərsizləşdirilsə də, hücum məsuliyyətini hələlik heç bir qruplaşma öz üzərinə götürməyib.

# ABŞ RUSİYAYA NATO-NUN BİRLİYİNİ PARÇALAMAĞA İMKAN VERMƏYƏCƏK

Ağ ev Rusiya tərəfindən inadkarlıq davam etdiriləcəyi təqdirdə NATO-nun cavab tədbirləri görəcəyi barədə xəbərdarlıq edib.

“Əgər Rusiya təcavüzkar və həyasız hərəkətlərini nümayiş etdirməyə davam edərsə, buna cavab veriləcək və NATO kontingenti daha çox olacaq. Biz Şərqi Avropada tərəfdaşlarımızı və bizim alyansın üzvlərini müdafiə etmək üçün hər şey edəcəyik”, – Varşavada keçirilən mətbuat konfransında ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşavirinin müavini Ben Rods bəyan edib.

Onun sözlərinə görə, Rusiya öz kursunu davam etdirdiyi təqdirdə ona qarşı əvvəlki kimi yenə də cavab sanksiyaları fəaliyyət göstərəcək.

Rods bildirib: “NATO üzvləri arasında həmrəylik mövcuddur və biz Rusiyaya alyansın birliyini parçalamağa imkan verməyəcəyik”.

# BAKIDA DOLMA FESTİVALI KEÇİRİLİB



Mədəniyyət və Turizm Nazirliyi, Abşeron Rayon İcra Hakimiyyəti, Azərbaycan Milli Kulinariya Mərkəzi və Azərbaycan Milli Kulinariya Assosiasiyasının birgə təşkilatçılığı ilə birinci beynəlxalq dolma festivalı keçirilib.

Festivalda Azərbaycanın bölgələrində bişirilən və müxtəlif çeşiddə hazırlanan 300 növ dolma sərgilənib.

Beynəlxalq festivalda türk-dövlətlərilə yanaşı, dünyanın bir neçə ölkəsindən, o cümlədən İndoneziya və Ukraynadan gəlmiş qonaqlar iştirak edib, milli mətbəx nümunələrini sərgiləyiblər.

Azərbaycan Milli Kulinariya Mərkəzinin sədri Tahir Əmiraslanov bildirib ki, festival ölkənin müxtəlif bölgələrində dolma növlərinin aşkara çıxarılmasına, yerli və beynəlxalq ictimaiyyətə təqdim olunmasına xidmət edir.

Festivalda incəsənət ustaları geniş konsert proqramı ilə çıxış ediblər.

Festivalda 6 nominasiya üzrə mükafatlar təqdim olunub: “Ən yaxşı xarici ölkə dolması”, “Ən yaxşı rayon süfrəsi”, “Ən maraqlı tarixi qeyri-adi dolma”, “Ən yaxşı dolma”, “Ən yaxşı xarici təqdimat”, “Ən çox medal toplayan rayon”.

Sonda qalib komandalara diplom, medal və qiymətli hədiyyələr təqdim edilib.

# BEŞ ÖLKƏ LAVAŞA GÖRƏ ERMƏNİSTANA ETİRAZ EDİB



Azərbaycan və daha 4 ölkə lavaşın “Ermənistanda lavaş” adı altında YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına salınması ilə əlaqədar etirazını bildirib.

Azərbaycan, Türkiyə, İran, Qırğızıstan və Qazaxıstan lavaş haqqında birgə sənəd hazırlayaraq YUNESKO-ya təqdim ediblər.

Beş ölkə tərəfindən hazırlanmış “Nazik çörək – lavaş, katırma, jupka, yufka hazırlama mədəniyyəti” sənədi ilə əlaqədar YUNESKO-nun nə vaxt qərar qəbul edəcəyinin tarixi bəlli olub.

YUNESKO bu məsələni noyabrın 28-dən dekabrın 2-dək Efiopiyanın paytaxtında keçiriləcək illik qeyri-maddi irsin qorunması üzrə hökumətlərarası komitənin 11-ci iclasında müzakirəyə çıxararaq, yekun qərar qəbul edəcək.

Xatırladaq ki, Ermənistanın lavaşa iddiası ilə əlaqədar bu birinci etiraz deyil.

Əvvəl Ermənistan lavaşı “Erməni çörəyi lavaş” adı ilə YUNESKO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etmək təşəbbüsü ilə çıxış etmişdi. Türkiyə və Azərbaycanın etirazından sonra Ermənistan sənədin adını “Ermənistanda lavaş” şəklində dəyişmişdir.

Azərbaycan və digər 4 ölkənin hazırladığı sənəddə lavaşın bu regionda yaşayan xalqların ümumi mədəni irsi olduğu qeyd edilir.

# ABŞ BÜDCƏSİNİN KƏSRİ 400 MİLYARD DOLLARI AŞDI

Cari maliyyə ilinin doqquz ayı ərzində ABŞ-ın büdcə kəsiri 316,4 milyarddan 400,8 milyard dollara yüksəlib. Bu isə 26,7 faiz deməkdir. Bu barədə Reuters ölkənin maliyyə nazirliyinin məlumatlarına istinadən xəbər verir.

Bu dövrdə gəlirlər 0,9 faiz artaraq 2,47 trillion dollar olsa da, xərclər 3,9 faiz artmaqla 2,87 trillion dollara çatıb.

ABŞ Konqresinin büdcə idarəsi 2016-cı maliyyə ilində büdcə kəsirinin 534 milyard dollar və ya ÜDM-in 2,9 faizi səviyyəsində olacağını planlaşdırır.

BVF-nin iyulun 12-də verdiyi proqnoza əsasən, 2016-cı ildə ABŞ iqtisadiyyatı 2,2 faiz artacaq. Əvvəl isə fond ölkənin ÜDM-nin 2,4 faiz olacağını xəbər verirdi.

Xatırladaq ki, ABŞ-da maliyyə ili oktyabrın 1-də başlayır və sentyabrın 30-da başa çatır. Keçən il ABŞ büdcəsinin kəsiri 438, 9 milyard dollar və ya ÜDM-nin 2,5 faizi qədər olmuşdu. ABŞ büdcəsində müsbət saldo (profisit) sonuncu dəfə 2001-ci ildə qeydə alınıb.

# TEREZA MEY İNGİLTƏRƏNİN BAŞ NAZİRİ TƏYİN EDİLİB

Mühafizəkarlar Partiyasının lideri Tereza Mey Böyük Britaniyanın yeni baş naziri təyin edilib

Məlumata görə bununla əlaqədar kraliça II Yelizaveta fərman imzalayıb.

II Yelizaveta T.Meyə yeni hökuməti formalaşdırmağı tapşırıb.

Tereza Mey II Yelizavetanın krallığı dövründə sayca 13-cü baş naziridir.

İngiltərənin ikinci qadın Baş naziri Tereza Mey yeni kabineti formalaşdırmaq işini davam etdirir.

# KÖNTÖYLÜK SELİ QARŞISINDA DÜŞÜNCƏLƏR

*Dövrün tələbindən, həyat şərtlərindən irəli gələrək gün ərzində onlarla insanın arasında olmalı, neçə insana salam verməli, yalandan gülümsəməli və ya sifət turşutmalı oluruq. Bunların hər birinin açıqlana biləcək səbəbləri var. Yəni, istənilən hərəkətin və vəziyyətin anlamını tapmaq mümkündür. Bunu boş adlandıran "müdriklər" də az deyil. Dırnaq işarəsinin səbəbi də sizlər üçün tamamilə aydındır. Bu insanların həyat fəlsəfəsi BOŞ ŞEYDİR-dən ibarətdir. Bu insanlar üçün hər şey guya dəyərsizləşib, guya hər şeyə anlamsız baxırlar, lakin bircə qırıq düşünsələr minlərlə bağın, minlərlə buxovun arasında olduqlarını özləri də anlayırlar... Onlar, yəni üçüncü şəxsin cəmiylə ifadə etdiyim əhali, özlərini dünyadan kənar, hər şeydən bezmiş sayır, dövrə, zamana, cəmiyyətə və ağlınıza gələcək hər şeyə yuxarıdan aşağı, ya da ən azından qıraqdan baxmağı seçirlər. Özlərini sadaladıqlarımızdan təcrid etmək, arındırmaq eşqinə düşürlər. Bu məqamda da kiminin yolu dərbədərlikdən, kimininki tərki-cəmiyyətdən keçir.*

Onlar özlərini tanıdılar. İstəsələr məqaləni burada dayandıra da bilərlər... Qalanını özümüz danışarıq, dəyərli oxucum!

Biz – cəmiyyətin, gərdişi-dövranın bütün iştirakçıları günümüzdə baş verən yaxşı və pis hadisələrin hamısında bu və ya digər dərəcədə pay sahibiyik. Yüzlərlə hadisədən təsirlənib, yüzlərləsinə də təsir edirik. Hətta, ən hərəkətsiz və ətalətdə olduğumuzu sandığımız anlarda da sosiumun taleyinə təsirsiz ötüşmürük. Deməli, olanlardan və olacaqlardan yaxamızı qırağa çəkmək, məsuliyyətdən qaçmaq üçün ən azından mənəvi haqqa sahib deyilik. Deməli, sağlam düşüncəli insan başını pambıqda girələyib, özünü zamanın qurbanı kimi qələmə verməməlidir. Günümüzü ağuşuna alan təcavüzün (aqressiya yazmaq istəsəm də, sonda fikrimdən daşındım) nələrdən qaynaqlandığını az çox özümüzdə aydınlaşdırmalıyıq. Ən azından öz həyat təcrübələrimiz bu mövzuda söz deməyimizə imkan yaradır. Bəhsini etdiyimiz təcavüzkar davranışın nəticələri isə hər birimizi rahatsız edir. Evdə, bayırda, dar və geniş çevrələrdə insanlar az qala bir-birilərinə gicitikan təsiri bağışlayırlar. Qarşılığını tapa bilmədiyim lakin, bu vəziyyətə çox yaraşdırdığım bir sözcük var. Bizim yerlərdə kifayət qədər yayğındır. "Köntöy", yəni kobud. Qarayazıda var olduğunu sandığım köntöylüyün sorağına Borçalının digər yerlərində də çatdım. Bu səbəbdən də sizlərə yad olmayacağını, uzaqlardan olan oxucularımın əfvinə sığınaraq düşünürəm. Demək istədiyim, son zamanlarda köntöylük baş alıb axmaqdadır. Bir saniyə ara verib ən son nə zaman kobudluq edib, insanları gicitikan kimi daladığımızı düşünək. Mən: dünən səhər. Heç nəm-nüm etməyə ehtiyac yoxdur. Əminəm ki, bu baxımdan heç kimin özkeçmişi təmiz deyil. Yaxşı bəs onsuz olmazdımı, bu işə başqa cür çarə tapılmazdımı deyə özümə sual verdikdə, cavabım əlbəttə ki, "olardı" olur. Amma, tərəfimizdən ürək qırmaq, kor-kobud olmaq daha asan, daha qısa yol kimi seçilir. Hövsələdən çıxırıq. Bu isə sadəcə bir bəhanədir. Xeyrimizi bilən dəlillərik. Lazım olanda səbir daşı kimi hövsələli ola biliriksə, deməli, bu sadəcə bəhanədən ibarətdir. Bir də, tənqid etmək və qüsur tapmaqdan ötrü, görülən qüsuru demək yox, məhz eşələyib yerin yeddi qatından tapıb, öz əksiyimizi örtməkdən ötrü ürəyimizin başı tökülür. Axı heç birimiz süddən çıxmış ağ qaşıq deyilik, enerjimizin, qısacıq həyatımızın yayın bu cırhacırında belə şeylərə sərf edilməsinin anlamını qavramış deyiləm. Sözünü saldığımız obrazlar hər gün, hər yerdə rastımıza çıxır. Havadan ürəyi bulananlar nifrətini, küdurətini qarşısına çıxan ilk insanın üstünə amansızca qusurlar. Qusuruq. Guya ki, bu yolla problemlərimiz bitəcək. Yəni, gicitikanlıqla qaraqabaqlığın dərdlərimizə çarə olacaq bir yanı, borcumuzu-xərcimizi ödəyəcək tərəfi, ya da cəmiyyətin çatışmazlığını aradan qaldıracaq xüsusiyyəti varsa bilək, bunu özümüzə missiya edib, hamı birlikdə bu cür davranaq. Həm də müdrik, ağıllı, ağır görkəmi almış, nümunəvi insan cildinə bürünmüş olarıq. Aramızda bunun çarə olacağına inanan varmı? Düşünürəm ki, əl qaldıran olmadı.

Alnımızın tez qırışacağını düşünək ən azından. Olmaz belə. Başağrısı olmasın, qaranlığa söyməkdənsə bir şam yandırmağa çalışmaqdan qeyri yolu yoxdur bu işin. Yoxsa kimin əli kimin cibində, kimin gözü kimin ayağında heç zaman bəlli olmayacaq. Necə lazımdırsa, mənəvi xaosda boğulmalı olacağıq. Təbəssüm satın deyil, qaz-işıq sayğacı kimi pul da yazmır. Biraz özümüzə, ətrafımızdakılara, bircə dəfə verilən ömrümüzə yazığımız gəlməlidir. Gülümsəməli, sevməli dünyanı, cəmiyyəti, eli-obanı sevginin xilas edəcəyinə inanmalıyıq. Çünki, bu mütləq həqiqətlərin başında gəlir. Sevəcək və sevinəcək bəhanələr tapmağa elə bugündən başlayaq.

P.s.

**Kənddə təmirlə əlaqədar qaz kəsilib, təmir işləri bitənədək samovar qaynadıb, hətta orta ocağında yemək bişirib ən azından özümüzə belə həzzlər hədiyyə edək... Ruhumuzdakı dumanların samovar tüstüsü ilə dünyamızdan uzaqlaşması diləyi ilə. Təbəssümlə qalın...**

Afayet AFİQ

# GÜRCÜSTANDA SEÇİCİLƏRİN SAYI 3 513 260 NƏFƏRDİR

Dövlət xidmətlərinin inkişafı agentliyinin məlumatına görə, Gürcüstanda seçicilərin sayı 3 513 260 nəfərdir.

Agentliyin rəhbəri Georgi Pataridze bu məlumatları Gürcüstan Mərkəzi Seçki Komissiyasının sədri Tamar Jvaniyaya təqdim edib.

MSK-da baş tutan görüşdə Dövlət xidmətlərinin inkişafı agentliyi müavini Mamuka Samxaradze və MSK-nın müavini Georgi Şarabidze iştirak ediblər.

Dövlət xidmətlərinin inkişafı agentliyinin məlumatları əsasında MSK seçicilərin siyahısını yeniləyəcək.

# GÜRCÜSTAN PARLAMENTİNİN DEPUTATLARI MÜVQELƏRİNDƏN SUİ-İSTİFADƏ EDİRLƏR

Gürcü deputatlar imtiyazlarından sui-istifadə edirlər. Bu barədə "Beynəlxalq şəffaflıq – Gürcüstan" qeyri-hökumət təşkilatının hesabatında məlumat verilir.

Gürcüstan parlamentinin 2015-ci ildəki fəaliyyətinə dair məruzədə deputatların tez-tez ailə vəziyyətləri ilə əlaqədar iclaslarda iştirak etmədikləri bildirilir.

Hüquq müdafiəçiləri 2015-ci il ərzində parlament üzvlərinin üzrlü səbəbə görə 2199 iclasda iştirak etmədiklərini qeyd edirlər. Bunun 1442-si ailə vəziyyəti ilə əlaqədar olub, bu da 2014-cü ilin göstəriciləri ilə müqayisədə 65% çoxdur.

"Parlamentin fəaliyyətində iştirak parlament üzvünün ilkin funksiyasıdır. Qanunverici orqanın üzvü parlament fəaliyyətinə məsuliyyətlə yanaşmalı və qanunla verilmiş imtiyazlardan sui-isifadə etməməlidir", – məruzədə deyilir.

QHT nümayəndələri ailə vəziyyətinə görə iştirak etməmənin üzrlü səbəb sayılmasının indiyədək parlament tərəfindən ləğv edilməməsindən narazıdırlar.

2015-ci ildə parlamentdə 65 plenar, o cümlədən də 19 növbədənkənar iclas keçirilib. Kvorum olmadığından 7 iclas baş tutmayıb. Hesabat dövründə parlamentin 129 bürosu və 668 komitə dinləmələri olub.

Parlament yaz, payız və növbədənkənar sessiyalarında 490 qanun qəbul edib, bunun 326-sı hökumətin təşəbbüsü ilə baş verib. 1601 qərar, 49 beynəlxalq razılaşma, müqavilə və konvensiya qəbul edilib.

Keçən il ezamiyyət xərcləri 1 513 385 lari təşkil edib. Bu vaxt ərzində 98 deputat ezamiyyətdə olub.

# DÖRD İL ƏRZİNDƏ PARLAMENTDƏ SUSQUNLUĞUNU QORUYAN DEPUTATLARIN ADLARI AZIQLANDI



27 deputat dörd il ərzində parlamentin sessiyalarında bir dəfə də olsa çıxış etməyib.

"Beynəlxalq şəffaflıq – Gürcüstan" qeyri-hökumət təşkilatının parlamentin 2015-ci il fəaliyyətini əks etdirən məruzəsinə əsasən, susqun deputatlar bunlardır: Vladimir Açba, Roland Axalaya, Qoderdzi Bukiya, Kaxa Butsxrikidze, Valeri Qelaşvili, Koba Davitaşvili, David Dartsmelidze, Zurab Zviadauri, Aleksandr Tamazaşvili, Georgi Karbelaşvili, Zaza Kedelaşvili, Qoqi Liparteliani, Əli Məmmədov, Enzel Mkoyan, Koba Nakopiya, Ramaz Nikolaişvili, Georgi Peikrişvili, Levan Kardava, Tamaz Kaçeişvili, Nikolaz Kipşidze, Revaz Şavloxaşvili, Teymuraz Çxaidze, Serqo Xabuliani, Rostom Xalvaşi, Tenqiz Xubuluri, Viktor Çaparidze və Tamaz Çaparidze.

2015-ci ildə iclaslarda çıxışlar üzrə birinci yeri 113 dəfə çıxış etməklə deputat Eka Beseliya tutur, onu parlamentin iclaslarında hərəyə 112 dəfə çıxış edən Xatuna Qoqrişvili və Çiora Taktakişvili təqib edirlər.

# PARLAMENTİN 29 ÜZVÜ BİZNES AKTİVLƏRƏ SAHİBDİR

2016-cı ilin martına olan vəziyyətə görə 29 parlament üzvü biznes aktivlərə sahibdir. 24 deputatın ailə üzvləri isə müxtəlif şirkətlərin idarəedicisi və ya sahibidirlər. Bu barədə "Beynəlxalq şəffaflıq – Gürcüstan" qeyri-hökumət təşkilatının parlamentin 2015-ci il fəaliyyətinə qiymət verən hesabatında bəhs olunur.

Təşkilatın məlumatına görə, sahibkarlıq fəaliyyətindən gəlirlərini yalnız 7 parlament üzvü göstərib.

Ən yüksək gəliri Kaxa Okriaşvili (4,7 milyon lariyə yaxın), Qoça Enikudze (4,5 milyon lariyə yaxın), Serqo Xabuliani (633 205 lari), Qoqi Topadze (611 052 lari), Georgi Kaxiani (44 500 lari), Georgi Jvaniya (25 000 lari) və Zaza Kedelaşvili (16 586 lari) göstəriblər.

Gürcüstan qanunvericiliyinə əsasən, parlament üzvü şirkətlərin səhmlərinə və paylarına sahib olmaq hüququna malik olsa da, ona sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq qadağan edilir. Parlamentin üzvü deputat səlahiyyətlərini yerinə yetirməyə başladığı andan statusuna uyğun olmayan, o cümlədən də sahibkarlıq fəaliyyətini dayandırmağa və 7 gün ərzində parlamentin prosedur məsələləri üzrə komitəsinə bunu təsdiq edən arayış təqdim etməyə borcludur.

Həmin komitənin məlumatına görə, 2012-2015-ci illərdə 69 halda parlament üzvlərinin payı idarə etmək hüququ ilə sahibkarlıq subyektlərinə verilib, 10 halda isə parlament üzvləri sahibkarlıq subyektlərində direktor postlarını özlərində saxlayıblar.

# GÜRCÜSTAN VƏTƏNDAŞLARI PULSUZ ŞƏXSİYYƏT VƏSİQƏSİ ALACAQLAR

Şəxsiyyət vəsiqələrinin istifadə müddəti parlament seçkilərinədək başa çatan Gürcüstan vətəndaşları pulsuz yeni electron vəsiqələr (İD kart) ala bilərlər.

Gürcüstan ədliyyə nazirliyindən bildiriblər ki, cari ilin iyulun 15-dən sentyabrın 15-dək yalnız yetkinlik yaşına çatmış vətəndaşların pulsuz İD kartlar alması mümkündür.

Electron vəsiqələrin alınması üçün ölkə vətəndaşları Hüquq evlərinə, Dövlət xidmətinin inkişafı üzrə agentliyin ərazi xidmətlərinə və ya İctimai mərkəzlərə müraciət etməlidirlər.

məlumatı Hüquq evinin və Dövlət xidmətlərinin inkişafı üzrə Agentliyin veb səhifələrindən almaq mümkündür.

Aksiyanın əsas məqsədi parlament seçkilərində seçicilərin siyahısını və məlumat bazasını dəqiqləşdirməkdir.

## GÜRCÜ SERİALLARI GÜNÜ-GÜNDƏN İNKİŞAF EDİR

**Seriallar insan həyatının bir parçasıdır. Əvvəllər serialları xüsusilə qadınlar böyük maraqla izləyirdilər. Çünki keçmişdə olan seriallarla günümüzün serialları çox fərqlidir. Misal üçün, 90-cı illərdə həyatımızı "zəbt edən" Brazilya və Latın Amerikası seriallarını yada salaq. Böyük bir ev, evin içində davam edən hadisələr, sevgi, xəyanət, yalanlar, ehtiras və s... Bəli, yüzlərcə seriya illər uzunu bu cür davam edirdi. Hər şey bir evin içində baş verirdi və insanlar hər həftə maraqla gözləyirdi ki, görəsən Sebastyanın növbəti seriyada yeni sevgilisi kim olacaq və hansı otaqda sevişəcəklər. Bu arada məlumat üçün qeyd edim ki, bu serial növü dilimizdə "sabun opera" adlanır. Ancaq günümüzdə seriallar daha da kütləviləşib. Yəni, əvvəl televiziyalar serialları əsasən qadınların boş vaxtlarında izləməsi üçün nəzərdə tuturdusa, artıq elə kişilər var ki, qadınlar yanında qələt eləyir serial mövzusunda. Çünki hər şey kimi seriallar da dəyişib artıq. Günümüzdə hər mövzuda, hər növ serial mövcuddur. Hətta bəzi serialların əsas izləyici kütləsi kişilərdir. Məsələn, "Kurtlar Vadisi" kimi.**

Nə isə... Keçək mətləbə. Bu yazımdakı ana mövzu gürcü seriallarıdır. Gürcüstanda son illərdə türk seriallarına böyük maraq var. Ancaq paralel olaraq gürcü seriallarında da ciddi inkişaf müşahidə edilməkdədir. 2014-2015-ci illərdə GDS kanalında yayımlanan "Tiplisi" ("Tiflis") serialını nümunə göstərmək olar. O son zamanlarda Gürcüstan məhsulu olan ən reytinqli, ən iribüdcəli seriallardan biri yox, məhz birincisidir. "Tiflis" serialındakı hadisələr 19-cu əsrdə cərəyan edir. Ana mövzusu qaçaqçılıq və qəhrəmanlıq olan serialda yüksək dərəcədə peşakar aktyorluq və o dövrün özünə xas ab-havası nümayiş olunub. Serialda Gürcüstanın vaxtı ilə necə ölkə içi xəyanətə uğradığından və azadlıq uğrundakı çətin mübarizəsindən də bəhs edilir. 17 seriya və hər seriyası yeni bir film kimi olan "Tiflis" serialını izləməyi mütləq məsləhət görürərəm.

Ötən yazımda dil öyrənmək mövzusuna toxunmuşdum. Gürcü seriallarını izləməyin bir digər faydası da gürcü dilinizi inkişaf etdirmək olacaq. Bu baxımdan xüsusilə gürcü dilinizi inkişaf etdirmək üçün izləyəməyinizi məsləhət görəcəyim bir digər serial isə "Chven qverdit" ("Bizim yanımızdadır") serialıdır. Bu serialı da uğurlu gürcü seriallarından hesab etmək olar. Ailələr və ailə içi problemlərdən, gənclərin həyatından bəhs edən bu serialı izləməyiniz, əmin olun ki, gürcü dilini öyrənməyiniz üçün də çox faydalı olacaq. Çünki bu serial əsasən xəstəxanada, kafe və restoranda, universitetdə və eləcə də həyatımızda sıx-sıx ziyarət edə biləcəyimiz digər yerlərdə çəkilir. Təbii haldır ki, bu məkanlarda çəkildiyi üçün də, misal üçün universitetdə nələrdən danışılır, necə danışılır mövzusuna və bu mövzudakı sözlərə hakim olursunuz.

Gürcü seriallarında müşahidə etdiyim bir digər hal ondan ibarətdir ki, ssenari və danışıqlar olduqca real yazılır. Söyüş lazım olunan yerdə söyüş söyülür, müəllimi müəllim, fahişəsi də fahişə kimi danışır. Məsələn Azərbaycan seriallarında və kinosunda bunu görmək mümkün deyil. Çünki serialın ən şərəfsiz adamı belə elə gözəl, elə səlis azərbaycanca danışır ki, hətta ona qarşı adamın lap qanı qaynayır.

Gürcü seriallarını bu qədər təriflədik, ancaq, təəssüf ki, seriallar üçün yazdığım bu ürəkaçan yazımı muasir gürcü filmləri haqqında yaza bilməyəcəm. Nədənini bilmirəm, amma son illərdə gürcü ssenaristləri, rejissorları açıq plagiata keçiblər. Sadəcə iki filmi nümunə verəcəm. Sonra istəsəniz özünüz araşdıra bilərsiniz. 2011-ci ildə çəkilən "Ra moxda Kievşi" ("Kiyevdə nə baş verdi") filmi, 2009-cu ildə çəkilmiş Amerika istehsalı olan məhşur "The Hangover" ("Gecə nə baş verdi") filminin birbaşa və uğursuz kopiyasıdır.

2015-ci ildə çəkilən və bir çox məhşur gürcü aktyorunun yer aldığı "Mr. Cica" ("Cənab dayə") filmi isə, 1993-cü ildə çəkilmiş, Robin Uilyamsın baş rolda yer aldığı "Mrs. Doubtfire" ("Cənab dayə") filminin birbaşa kopiyasıdır. Hətta bu plagiat filmdə adamlar orijinal filmin adını belə kopiyalayıblar.

**Nə deyim, üzücü haldır. Bu filmlərə müəyyən qədər büdcə ayrılır. Yaxşı olardı ki, bu büdcəni var olan bir filmin kopiyası üçün yox, yeni və Gürcüstan kino tarixinə adını əbədi yazdıracaq filmlərin çəkilməsi üçün istifadə edəydilər...**

Anar RAFİQOĞLU

## AVTOMOBİL İSTİFADƏSİNDƏ HƏYATI XİLAS EDƏN XÜSUSLAR

Yağışlı hava şərtlərində yollardakı avtomobillərin və piyadaların təhlükəsizlikləri əhəmiyyətli dərəcədə azalır. Yağışlı havalarda təhlükəsizliyinizi təmin etmək üçün aşağıda verilən xüsuslara əməl edilməsi, qəza etmə ehtimalınızı olduqca azaldacaqdır.

Avtomobilə minməzdən əvvəl göz qərarı da olsa, rezin təkərlərə baxmaq lazımdır. Texniki olaraq isə şinlərin diş dərinliklərinin ən azı 3 mm



olması lazım olduğunu unutmamalı və nəzarə almalısınız. Avtomobilin ön və arxa hissəsində yer alan təhlükəsizlik kəmərlərinin yoxlanılmasına da ehtiyac var. Siqnalların və faraların, sağlam işləməsi həm sizin, həm də avtomobildə olan sərnişinlərin təhlükəsizliyi baxımından mütləq səviyyədə yoxlanmalıdır. Əgər avtomobildə bu xüsusda hər hansı bir nasazlıq olarsa, aradan qaldırıldıqdan sonra yola çıxılmalıdır.

Avtomobil şüşələrinin, siqnallarının və faralarının sürüş təhlükəsizliyi baxımından təmiz olması lazımdır. Görüş təhlükəsizliyini təmin edəcək şəkildə təmizləmə aparılmadan yola çıxılmamalıdır. Maşınınızın içində sərbəst halda əşya olmamalıdır. Çünki, bu materiallar mümkün bir qəza anında ciddi yaralanmalara səbəb ola bilər.

Avtomobildə mütləq yanğınsöndürən balon və ilk yardım çantası olmalıdır. Şüşə siləcək suyun, yağ səviyyəsinin və akkumulyator səviyyəsinin müvafiq normaya uyğun olub-olmamasına mütləq baxılmalıdır. Xüsusilə həddindən artıq yağışlı havalarda avtomobil şüşələrinin təmiz olması sürücünün yolu müşahidə etməsi üçün həyati əhəmiyyət daşıyır.

Ön şüşənin görüş dairəsinin 1-2 saniyəliyinə bağlanması belə, nəqliyyatda çox dəhşətli nəticələrin yaranmasına səbəb ola bilər. Siləcəklər xüsusilə ötüb keçmə zamanı sürətli işlədilməlidir.

Yağışlı hava şərtlərində gündüz vaxtı da olsa, faralar qısa məsafədə yandırılmalıdır. Su yığınlarına girib-çıxma nəticəsində islanmış olan əyləcin qurudulması qısa müddətə əyləcə xəfifcə toxunub buraxmaqla mümkündür. Qaz pedalına həddindən artıq basmaqdan, sərt şəkildə tormoz verməkdən və ani olaraq sükanı çevirməkdən çəkinilməlidir. Çünki bu cür hərəkətlər avtomobilinizin nəmli zəmində sürüşməsini asanlaşdıracaqdır.

Yenicə yağmağa başlayan yağış zamanı qəzaların meydana gəlməsi ehtimalı daha çox olur. Belə ki, yol üzərində yığılmış toz və yağ kütləsinin yolu sürüşkən hala salması hər kəsə məlumdur. Bu kimi hallarda, yəni yağışın yeni başladığı vaxtlarda sürət azaldılmalı, əyləcdən və ani sərt manevrlərdən çəkinilməlidir.

Nəticə etibarı ilə odur ki, hər bir sürücü, məsuliyyət hissini daim göz önündə tutmalı və avtomobildən istifadə edərkən diqqətli olmalıdır.

Elsevər ƏHMƏDOV

## QAZLA İŞLƏYƏN AVTOMOBİLLƏRİN TEXNİKİ BAXIŞI KEÇİRİLİR

Gürcüstanda qazla işləyən avtomobillərin texniki baxışına start verilib. Sürücülərə avtomobillərin texniki baxışı 60 lariyə başa gələcək. Onu bir neçə şirkət həyata keçirib, xüsusi sertifikat verəcək. Hal-hazırda "Airballon" və "Qazinjener" şirkətlərinin texniki baxış keçirmək üçün icazəsi var.

Texniki baxışdan keçməyən sürücülər 100 lari cərimə olunacaqlar.

Gürcüstan İqtisadiyyat nazirliyinin akreditasiya mərkəzində yalnız bu iki şirkətin tələblərə cavab verdiyini bəyan ediblər.

Akreditasiya mərkəzinin baş direktoru Paata Qoqoladze bildirib: "Qazla işləyən maşınların yoxlanılması xüsusi əhəmiyyət kəsb edir, çünki onlar özlərində in-



san həyatı üçün böyük təhlükə daşıyırlar. Uzun müddət mübahisə gedirdi ki, belə yoxlamanın aparılması üçün hökumət niyə tədbir görmür. Hazırda iki şirkət akreditasiyadan keçib, üçüncü isə akreditasiya prosesindədir. Yəqin ki, onların sayı cəmi beş olacaq".

## MƏKTƏB MANDATUR XİDMƏTİNDƏ İSLAHAT KEÇİRİLƏCƏK

Gürcüstan təhsil və elm naziri Aleksandr Cedcelava məktəb mandatur xidmətinin islahata ehtiyacı olduğuna əmindir.

Təhsil naziri edu.aris.ge internet nəşrinə müsahibəsində nazirliyin yaxın yarım il ərzində bu sahədə bir sıra dəyişiklik etməyi planlaşdırdığını bildirib.

Nazirin fikrincə, məktəb polis xidməti özünə mənfi imic yaradıb.

Cedcelava bəyan edib: "Məktəb mandatur xidməti mənim xoşuma gəlir. Düşünürəm ki, o, mövcudluğunu davam etdirməlidir.

Lakin bu xidmət yaranan zaman qorxunc və polis imici var idi. O, şagird üçün də, müəllim üçün də, direktor üçün də qorxunc idi".

Nazir əlavə edib ki, yayılan məlumata görə, bəzi mandaturlar "qəsdən direktorların ayağının altını qazıblar və nəticədə onların yerini tutublar".

Nazir bildirib: "Yaxşı ki, mandatur indi direktora tabedir... Mandatur sözü komendantın əmisi oğludur.

Düşünürəm ki, bu adı təhlükəsizlik, mühafizə mənalı sözlə əvəz etmək lazımdır ".

Cedcelavanın fikrincə, əgər mandaturlar məktəb nəzdində şagirdlərə yol hərəkəti qaydalarını öyrədən xüsusi dərnəklərə başçılıq etsələr daha yaxşı olar.

Xatırladaq ki, məktəb mandatur sistemi "Təhlükəsiz məktəb" konsepsiyası çərçivəsində 2010-cu ildə təsis edilib.

## KADET LİTSEYİNƏ DAXİL OLMAQ ÜÇÜN 45 QIZ MÜRACİƏT EDİB



Georgi Kvinitadze adına hərbi litseydə qəbul imtahanları keçirilib. İmtahanlarda 625 abituriyent iştirak edib.

İmtahanlarda bir yer uğrunda beş abituriyent mübarizə aparıb.

Cari ildə hərbi litsey 126 gənc qəbul edəcək. Cari ildə litsey ilk dəfə qızları da qəbul edir. 2016-2017-ci tədris ilində litseyə 45 qız ərizə verib.

Hazırkı qəbul imtahanları nəticəsində hərbi kadet litseyi şagirdlərin akademik səviyyəsinin artacağını, bunun da təhsilin keyfiyyətinin yaxşılaşmasına və litseyin imicinin möhkəmlənməsinə kömək edəcəyini gözləyir.

Üç il ərzində kadetlər qida, yataqxana (kazarma), tibbi xidmət, hərbi forma və silahla təchiz olunacaqlar. Təhsil başa çatdıqdan sonra tam orta təhsil haqqında attestat və müvafiq sertifikat verilirr.

# GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ

**Gürcüstan tarixinin bu vizual yenidənqurulması əsas hadisələri, mühüm faktları nə vaxtsa real olaraq baş verən olayları ayrı-ayrı kitab şəklində ayırır və bir böyük, əsas silsilə olaraq birləşdirir. Bu kitablar bütün yaşda olan oxuculara, ailənin bütün üzvlərinə məxsusdur – kiçik nəsildən tutmuş böyük nəslə qədər... tanış olduğu vaxtdan – yada saldığı vaxta qədər...**

**İllüstrasiyalaşdırılmış tarixin bu cildi konkret dövrlərin tədqiqatçı-tarixçilərinin nəql etdikləridir və dəst-xətti, üslubu ilə bir-birindən fərqlənən rəssamlar tərəfindən illüstrasiyalaşdırılmışdır. Nəşr üçün sənədli materiala istinad edərək hər bir dövrün döyüş, dünyəvi və kilsə kostyumları, xəritələr və s. yaradılıb.**

Bütün təsvir olunan hadisə, epizod, cizgi, nadir muzey eksponatı, foto və freska təqdim olunan materiala sənədli dəqiqlik verir. Silsilə üçün xüsusi olaraq Gürcüstan Milli Muzeyinin, Gürcüstan Dövlət Teatr, Musiqi və Xoreqarafiya arxivinin, Gürcüstan Parlamenti Milli Kitabxanasının, Gürcüstan Əlyazmaları Milli Mərkəzinin arxivlərindən verilən muzey eksponatlarının siyahısı tərtib olunub.

Kitabların bu silsiləsinin yaradılması üçün alimlərin, rəssmamların, istərsə də texniki personalın böyük dəstəsi 3 il ərzində yorulmadan çalışmış və indi də çalışmaqdadır...

Tarix xronoloji ardıcıllıqla toxunur, bu mürəkkəb naxışdır, bir-birilə görünməz iplərlə bağlıdır.

Buna görə də sözügedən silsilə bir-birinə bağlı fərqli mövzuları əhatə edir və Gürcüstanın salnaməsini yaradır. Hər bir cild bu salnamənin fərqli səhifəsidir. Bu baxımdan cildlər bir-birini tamamlayır. Onların hər biri öz incəliyi ilə əhəmiyyətlidir.

Silsilə 24 cilddən ibarət olacaqdır. İndiyədək çıxan cildlərin bəzilərində Azərbaycan mövzusuna da yer ayrılmışdır. Artıq silsilənin iyirminci cildi işıq üzü görüb.

"Monqollar və Gürcüstan" başlığı altında XIII əsrin əvvəllərində Mərkəzi Asiyanın şərq çöllərindən çıxan köçəri monqol-tatar ordularının az bir vaxtda müsəlman aləminin mühüm hissəsini, Qafqazı, Rusiya və Şərqi Avropanın böyük hissəsini işğal etməsi, monqollar, onların həyat tərzi, qidaları, dini tərbiyənin monqol qaydası, zahiri görünüşləri, bayraq rəmzi və s. barədə söhbət açılır. "Monqollar dövlət yaratdı" başlığı altında XIII əsrin başlağıcında köçəri monqol tayfalarının birləşdirilməsindən, Yesuqey xanın oğlu Temuçinin bu birləşdirməni həyata keçirməsindən danışılır. Burada Temuçin barəsində qısa məlumat verilir. Yeni yaradılan birləşmiş monqol dövlətinə xaqan lazım gəlir. 1206-cı ildə monqol hərbi aristokratiyasının ağsaqqalları Onon çayı sahilində böyük qurultay keçirirlər. Onlar bu qurultayda monqol dövlətinin ali hakimi olaraq Temuçini seçirlər. O, sonralar Çingiz xan adlanır (Dəniz mənası verən Çingiz adı Temuçinə verildikdən sonra bütün xalqların böyük xaqanı anlamını vermişdir – M.M.). "Monqolların işğalları" bölümündə monqolların Çinə hücumları, Çinin hərb texnikasının ələ keçirilməsi, hərbi nizam-intizam, Orta Asiyanrın işğalı, monqolların Qafqazda görünmələri, monqollar tərəfindən Rusiyanın işğalı, Böyük Çin səddi barədə nəql olunur.

"Çariça Tamarın vəfatından sonra Gürcüstan" başlığı altında taxta onun oğlu IV Giori Laşanın çıxması, onun həyatı, şəxsi xususiyyətləri, salnaməçilərin onun haqqında yazdıqları, o dövrün digər olayları öz əksini tapmışdır.

"Rindlər" bölümündə yazılıb:

"Gürcü əyanları üçün xüsusilə dözülməz və narahatedici o oldu ki, Laşa Giorgi rindlər ilə, daha doğrusu, "meyxoşlar" ilə iş gördü. Rindlər islamda sufi təriqətinin tərəfdarları idilər. Belə ki, onlar düşünürdülər ki, şərab içməklə Tanrıya yaxınlaşa bilərlər. Rindlər Tiflisdə kifayət qədər idilər".

"Monqolların Gürcüstanda ilk görünmələri" başlığı alğında monqolların Gürcüstanda ilk dəfə 1220-ci ildə görünməsi, gürcülərin məğlubiyyəti, görünməmiş



amansızlıqlar, vahid qüvvə ilə qarşı çıxma cəhdi, Saqimi çölündə döyüş, monqolların döyüş taktikası və IV Giorgi Laşanın vəfatı barədə söhbət açılır.

"Xarəzmlilərin Gürcüstana hücumu" başlığı altında Xarəzm şahı Cəlaləddin, onun işğalçı müharibələri, Gürcüstana hücum niyyətində olması, onun ultimatumu barədə danışılır.

"Cəlaləddin tərəfindən Tiflisin alınması" başlığı altında nəql olunur: 1226-cı ilin əvvəllərində Cəlalədin Gürcüstanın taxt şəhərinə çatdı. Tiflis yaxşı möhkəmləndirilmişdi. Kiçikdən böyüyə hamı şəhərin müdafiəsinə qalxmışdı. Xarəzmlilər Tiflisi mühasirəyə aldılar və iki ay ərzində hücuma hazırlaşdılar". Sonra onlar Tiflisə hücum edərək, ələ keçirdilər.

Cəlaləddinin əmri ilə Tiflisdə Sioni məbədinin kümbəzini uçurturlar, kümbəzin yerində öz taxtını qurdurur və üstündə oturur, müsəlmanlığı qəbul etməyən yüz min mömininin başını vurdurur. Sonralar işgəncələrə məruz qalan yüz min gürcünü kilsə müqəddəs elan edib. Bir yerdə yazılıb: "Cəlaləddinin Gürcüstana hücumu beş il davam etdi. Elə gün olmazdı ki, gürcülər düşmənə ziyan vurmayaydılar. Onlar kiçik qruplarla xarəzmlilərə qarşı mübarizə aparırdılar. Nəhayət, monqollar tərəfindən sıxışdırılılan Cəlalləddin Basiani dağlarına sığındı. Burada 1231-ci il avqustun 17-də yatdığı zaman bir kürd çoban onu qətlə yetirdi və onun dövləti dağıldı. Gürcüstan xarəzmlilərin hökmranlığından xilas oldu. Gürcü çar sarayı Kutaisidən Tiflisə qayıtdı".

"Monqollar tərəfindən Gürcüstanın işğalı" başlığı altında onların hücumu, Samsxeni, Kvemo Kartlini tabe etmələri, düşmənə qarşı ölkənin birləşə bilməməsi, əyanlar arasında etimadsızlığın, paxıllığın olması barədə söz açılır ki, bunun da nəticəsində onlar monqollara qarşı birgə mübarizə aparmaqdan imtina edirlər. Monqollar, demək olar ki, Şərqi Gürcüstanı döyüşsüz özlərinə tabe edirlər.

"Monqolların saziş bağlaması" bölümündə monqolların Gürcüstanda daimi düşərgələrinin əmələ gəlməsi, onların Gürcüstanda mövqelərinin güclənməsi, saziş danışıqları, sazişin şərtləri, əsas öhdəliklər və s. barədə söz açılır.

"Gürcü Xatun" bölümündə bunlar nəql edilir: "Çariça Rusudan ilə Səlcuq şahzadəsi Moğisəddinin (xristianlığı qəbul edəndən sonra Dimitri adlanıb) qızı var idi ki, şan-şöhrətli nənəsinə hörmət əlaməti olaraq onun adını Tamar qoymuşdular. Gözəlliyi və əxlaqı ilə məşhur olan Tamarı ondan xritsian dinini dəyişməyi tələb etməmək şərtilə 1236-cı ildə Rum sultanı Qiyasəddin II Keyxosrova ərə verirlər. Çariça Rusudan Atsğuri qalasını qızına cehiz verərək, onu böyük hörmət və izzətlə Rum sultanlığına yola salır". Daha sonra qeyd edilir: "II Keyxosrov həyat yoldaşını Gürcü Xatun adlandırıb. Rum sultanı gürcü qızının gözəlliyinə, müdrikliyinə hədsiz heyran olmuş və ona ürəkdən bağlanmışdı. Gürcü Xatunun da ərinə, eləcə də saraya böyük təsiri var idi. Buna görə də sarayda onun çoxlu düşmənləri ortaya çıxır. Qiyasəddinin həyat yoldaşlarından biri Gürcü Xatunu öldürmək istəmiş və onu zəhərləmişdi. Lakin o möcüzəli şəkildə ölümdən xilas olmuşdu. Qəzəblənən Rum sultanı həmin qadını saraydan qovmuşdu".

Qiyasəddin tərəfindən 1236-cı ildə kəsilmiş sikkədə yalı dağınıq şir ilə günəş kürəsi içində qadının siması əks olunmuşdu. Bu, Gürcü Xatunun əksi idi, şir isə özü idi. Şərqdə yayılan emblem – Günəş və şir ( Şiri-Xorşid) öz mənbəyini buradan götürürb. Bu emblemi XIV əsrin əvvələlərində iranlılar götürərək, ona dövlət rəmzi kimi dəyər veriblər. Daha sonra Gürcü Xatunun müsəlmanlığı qəbul eməyə məcbur olması, lakin başçısı Şərqdə məşhur sufi şeyxi və şairi Cəlaləddin Rumi olan Mövləvi sufi təriqətinə qoşulması, eləcə də Şərq mənbələrində "Əsrin sultanı", "Bəşəriyyətin xanımı", "Nəcabətli və mərhəmətli qadın" və s. nəcib xüsuiyyətlərlə xatırlanan bu gürcü qadının müsəlman aləmində heç bir qadının nail ola bilmədiyi hörmət və məhəbbətə layiq görülməsi barədə məlumatlara yer verilib.

**Beləliklə, bir daha qeyd etmək lazımdır ki, bu "Gürcüstanın illüstrasiyalaşdırılmış tarixi" silsiləsindən nəşr olunan 20-ci cild gürcü oxucusu, eləcə də azərbaycanlı oxucusu üçün çox maraqlıdır.**

Mirzə MƏMMƏDOĞLU

## QARA DƏNİZDƏ NATO BREEZE-16 ÇOXMİLLƏTLİ TƏLİMLƏRİ KEÇİRİLİR



NATO-ya üzv dövlətlərin, eləcə də "Sülh naminə tərəfdaşlıq" iştirakçılarının çoxmillətli Breeze-16 təlimləri Bolqarıstanın ərazi sularında və Qara dənizin beynəlxalq sularında keçirilir.

11-17 iyul tarixində keçiriləcək təlimlərdə Rumınyanın 3 hərbi gəmisi iştirak edir. Rumıniya hərbi dəniz qüvvələri qərargahından verilən məlumata görə, Breeze-16 təlimlərinə qatılan rumın gəmiləri NATO-nun öhdəsində olan qüvvələrin tərkibinə daxildir. Təlimlərdə iştirak zamanı rumın hərbi dənizçiləri tərəfdaşların müvafiq hərbi struktura malik gəmi ekipajları ilə qarşılıqlı fəaliyyəti əlaqələndirməyi sınaqdan keçirəcəklər.

Bütövlükdə təlimlərdə Bolqarıstan, Yunanıstan, Rumıniya, Türkiyə və İspaniya kimi NATO-ya üzv olan ölkələrin hərbi dəniz qüvvələrinə məxsus 25 hərbi və köməkçi gəmi və katerləri iştirak edir. Habelə Breeze-16 təlimlərində NATO-nun İkinci mina əleyhinə gəmilər daimi qrupu iştirak edir.

## "ŞƏRQ TƏRƏFDAŞLIĞI" ÖLKƏLƏRİ VAHİD İQTİSADİ MƏKAN YARADIRLAR

"Şərq tərəfdaşlığı" ölkələri müəyyən sahələrdə vahid iqtisadi məkan yarada bilərlər. Bu barədə Ukraynanın xarici işlər naziri Pavel Klimkin "Şərq tərəfdaşlığı" (Gürcüstan, Ukrayna, Moldova, Azərbaycan, Belarus və Ermənistan) ölkə nazirlərinin 7-ci qeyri-rəsmi görüşünün nəticələrinə həsr olunmuş mətbuat konfransında məlumat verib.

P. Klimkin deyib: "Bu gün mən ümumi iqtisadi məkan yaradılması və hansı yola yaratmaq məqsədilə məhsuldar diskussiya aparmağın imkanları haqqında məsələ qaldırdım".

O, qeyd edib ki, "Şərq tərəfdaşlığı" ölkələri Avropa məhsulları üçün perspektivli bazardır.

Mətbuat konfransında çıxış edən Avropa Birliyinin qonşuluq və genişlənmə siyasəti məsələləri üzrə komissarı Yohannes Xan bildirib ki, "əgər biz regionda stabillik istəyiriksə, onda iqtisadi inkişafa kapital qoyulmalıdır".



## GUAM-A ÜZV ÖLKƏLƏRİN BAŞ NAZİRLƏRİ AZAD TİCARƏT ZONASININ YARADILMASI MƏSƏLƏSİNİ MÜZAKİRƏ EDƏCƏKLƏR

Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilata (GUAM) daxil olan Gürcüstan, Ukrayna, Azərbaycan və Moldaviyanın hökumət başçıları payız Kiyevdə azad ticarət zonasının tətbiq olunması məsələsini müzakirə edəcəklər. Bu barədə iyulun 5-də Ukrayna baş nazirinin mətbuat katibi Dmitri Stolyarçuk məlumat verib.

Ukraynanın baş naziri Vladimir Qroysman iyunun 5-də GUAM nümayəndələri ilə görüş keçirib.

Stolyarçuk özünün Twitter səhifəsində yazıb: "GUAM hökumət başçıları payız Kiyevdə azad ticarət zonasının tətbiq olunmasını müzakirə edəcəklər".

Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovanın daxil olduğu Demokratiya və İqtisadi İnkişaf uğrunda Təşkilatının (GUAM) əsası 1997-ci ildə qoyulub. 1999-2005-ci illərdə təşkilata Özbəkistan da daxil idi. Onun çıxmasına qədər təşkilat GUÖAM adlanırdı.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

Yeni YOL

15 iyul 2016-cı il
№013 (27)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / “იენი იოლი” საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci tarixdən nəşr olunur

## RİO-DE-JANEYRO OLİMPİADASINDA GÜRCÜSTANI 39 İDMANÇI TƏMSİL EDƏCƏK

Rio-de-Janeyroda keçiriləcək yay Olimpiya Oyunlarında Gürcüstanı 39 idmançı təmsil edəcək. Axırıncı olimpiya lisenziyasını hündürlüyə tullanma üzrə idmançı Valentina Lyaşenko alıb.

Lisenziya almış Gürcüstan idmançıları arasında idmanın 12 idman növü üzrə nümayəndə var: 8 cüdoçu, 6 sərbəst güləşçi, 5 yunan-Roma stili üzrə güləşçi, 5 yüngül atlet, 3 ştanqçı, 3 kamandan oxatma üzrə idmançı, 2 tapançadan güllə atıcılığı üzrə idmançı, 2 üzgüçü, 1 bədii gimnastika üzrə idmançı, 1 batutda tullanma üzrə idmançı, 1 qılıncoynadan, 1 kanoeçi və 1 tennisçi.

Xatırladaq ki, Rio-de-Janeyroda Olimpiya Oyunları 5-21 avqust tarixində keçiriləcək. Yarışlarda idmançılar 306 dəst medal uğrunda mübarizə aparacaqlar. Olimpiya oyunlarında dünyanın müxtəlif ölkələrindən 10 000-dən çox idmançının iştirak etməsi gözlənilir.

## TUTANXAMON SƏMA MƏNŞƏLİ ƏŞYA İLƏ DƏFN OLUNUB

Alimlər qeyri-adi kəşfə imza atıblar. Belə ki, ən məşhur Misir fironlarından biri olan Tutanxamonun sərdabəsindən kosmik mənşəli əşya tapılıb. Fironun sərdabəsini 1922-ci ildə üzə çıxaran ingilis arxeoloqu Qovard Karterin ekspedisiyasının üzvləri üzə şıxarmışdılar.

Meteoritics and Planetary Science Journal-da dərc olunmuş məqaləyə görə, Misir və İtaliya alimləri Tutanxamonun sərdabəsindən tapılan xəncərin rentgenofluoressent analizindən və onun kimyəvi tərkibini öyrəndikdən sonra belə qənaətə gəliblər ki, xəncər min il əvvəl yerə düşmüş meteoritdən əridilərək hazırlanıb.

Onlar bunu xəncərin hazırlandığı metalda toplanan nikel vasitəsilə müəyyənləşdiriblər. Yer mənşəli flizdə onun miqdarı 4%-dən çox olmur, xəncərdə isə bu 11%-dir.



Bu kəşf Misir sivilizasiyasını meteoritdən metal almağı bacaran ilk sivilizasiya hesab etməyə imkan verir.

Kəşfin müəllifləri yazırlar: “Beləliklə, güman etmək olar ki, misirlilər Qərb mədəniyyətini iki min il qabaqlayaraq, b. e. ə. XIII yüzillikdən etibarən səmadan dəmir parçalarının düşdüyünü bilirdilər”.

## ALİMLƏR BƏŞƏRİYYƏT ÜÇÜN ƏSAS TƏHLÜKƏLƏRDƏN BİRİNİN ADINI AÇIQLADILAR

Vaşinqton Universitetinin və Londonun İmperiya kollecinin beynəlxalq tədqiqatçılar qrupu bütün dünyada əlillik və ölümün əsas səbəblərindən birinin hepatit virusu olduğunu müəyyənləşdiriblər. Bu barədə EurekAlert! elmi yeniliklər portalı məlumat yayıb.

Məlumatda bu xəstəliyin QİÇS və vərəmlə eyni cərgədə dayandığı vurğulanır.

Öz araşdırmalararında tədqiqatçılar 1990-ci ildən 2013-cü ilə qədər olan dövr ərzində 183 ölkədə toplanmış məlumatları rəhbər tuturlar. Alınmış nəticələrə əsasən 20 ildən artıq dövr ərzində hepatit virusundan ölənlərin sayı 63 faiz artıb. Hər il bu xəstəlik 1,45 milyon adamın həyatına son qoyur. Vərəmdən və QİÇS-dən ölənlərin sayı isə azalır.

Tədqiqatçılar yüksək və orta səviyyəli gəliri olan ölkələrin əhalisinin hepatit virusuna tutulmağa daha çox meylli olduğunu, Şərqi Asiya sakinlərinin isə bu xəstəlikdən demək olar ki, əziyyət çəkmədiklərini təsdiqləyiblər.

## DÜNYANIN ƏN ZƏNGİN İDMAN KOMANDASI MÜƏYYƏN EDİLİB

“Forbes” jurnalı ən zəngin idman klublarının siyahısını yeniləyib. Siyahıya 4 milyard dollarla Amerika futbol klubu “Dallas Kauboys” başçılıq edir. Klub ötən mövsüm 270 milyon dollar gəlir əldə edib.

İkinci yerdə 3,6 milyard dollar aktivləri ilə İspaniyanın “Real Madrid”, 3-cü yerdə isə 3,5 milyard dollara yaxın varidatla “Barselona” futbol klubları gəlir.

“Forbes” ən çox qazanc əldə edən idmançılarının siyahısını da açıqlayıb.

Siyahının ilk pilləsində futbolçu Kriştianu Ronaldu qərarlaşıb. O, ötən 1 il ərzində 88 milyon dollar qazanıb.

Ən çox qazanan idmançılar arasında ikinci yeri Lionel Messi tutur. Onun illik gəliri 81,4 milyon dollar olub. Üçlüyü 77,2 milyon gəlirlə amerikalı basketbolçu Lebron Ceyms tamamlayıb.

## DAŞBAŞI KANYONU TƏBİƏT ABİDƏSİ HESAB OLUNDU



Kvemo Kartli regionunda yerləşən Daşbaşı kanyonu (kanyon coğrafi termindir, sıldırımlı dərin dar dərə deməkdir – red. qeydi) təbiət abidəsi hesab olunur. Bu barədə Gürcüstanın mühafizə olunan ərazilər agentliyi məlumat yayıb.

Daşbaşı kanyonunun əsas su təchizatçısı Xram çayıdır. Başlanğıcında onu Ksiya da adlandırırlar. Milyon illər ərzində çay bir neçəsi keçilməz olan çoxlu kanyon yaradıb.

Kanyon vulkanik suxurlardan formalaşıb. Onun uzunluğu 8 kilometrdir. Onun yamaclarının hündürlüyü bir neçə yüz metrdir.

Daşbaşı kanyonu təkrarolunmaz və təsirli mənzərələri ilə fərqlənir. Onun yamaclarında çoxsaylı şəlalələr yerləşir.

Burada həm təbii, həm də insanların yaratdıqları mağaralara rast gəlinir.

Mühafizə olunan ərazilər agentliyi milyon illər ərzində kanyonun ərazisində nadir ekosistemin yarandığını bəyan edib.

## YEMİŞİN FAYDALARINDAN SİZ DƏ BƏHRƏLƏNİN



Yemiş həm dadlı, həm də çox faydalı məhsuldur.

Yemişin tumları da çox faydalıdır və xalq təbabətində müalicəvi vasitə kimi istifadə olunur.

Yemiş tumları ta qədimdən güclü afrodiziak kimi tanınır. Afrodiziak cinsi aktivliyi stimullaşdıran və artıran maddədir. Məhz bu səbəbdən yemiş tumları qədim vaxtlardan kişilərdə potensiyanın zəifləməsi, prostat vəzi xəstəlikəri zamanı istifadə olunurdu.

Bu məqsədlə yemişin tumlarını qurutmaq, üyütmək (qabıqlarını təmizləmək lazım deyil) və gün ərzində yeməkdən 1 saat sonra 1 çay qaşığı qəbul etmək lazımdır. Yemişin tumlarında sink çoxdur. Sink isə kişi cinsiyyət sisteminin normal fəaliyyəti üçün əvəzolunmaz mineral sayılır.

Yemiş tumları öskürək, xroniki öskürək, bronxit zamanı yaxşı təsir göstərir, bəlğəmi çıxarır, iltihab əleyhinə təsir edir. Öskürəklə mübarizədə yemiş tumlarından “süd” hazırlamaq lazımdır. Tumları qurudub üyütmək və 1 xörək qaşığı götürüb 1 stəkan ılıq suda həll etmək lazımdır. Alınmış “süd” gündə 3 dəfə yeməkdən əvvəl qəbul olunmalıdır.

Bu “süd” həmçinin dəriyə cavanlaşdırıcı təsir edir, kiçik qırışları açır, dərinin rəngini yaxşılaşdırır, onu yumşaldır. Pambıq parçanı “süd”də isladıb üz və boyun dərisinə qoyaraq 20 dəqiqə saxlayın. Bu sadə proseduru həftədə 2-3 dəfə etmək olar.

Yemiş tumları bağırsaqları və qara ciyəri yaxşı təmizləyir. Bunun üçün yemişin tumlarını qurudub, üyütmək və alınan “un”u gün ərzində 3 dəfə yeməkdən 1 saat sonra qəbul etmək lazımdır.

Yemişin tumları sidikqovucu təsirə malikdir, sidik yollarını təmizləyir. Yemişin tumları öd kisəsinin fəaliyyətini yaxşılaşdırır, durğunluğu aradan qaldırır.

Yemişin tumları qurdqovucu təsirə malikdir. Bu uşaqlar üçün xüsusilə xeyirlidir.

## BAŞSAĞLIĞI

Fazil Həsənov, Mikayıl Osmanoğlu, Binnət Vəli oğlu Nəbiyev, Vəli Xıdıroğlu, Həmzə Aşırov, Nizami Paşa Saraclı və İbrahimxəlil tanınmış maarifçi-müəllim

**Xalid İsa oğlu Namazovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

**Təsisçi:**
*“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”*

***Redaktor*:**
**Afiq Muxtaroğlu**
***Yayım Direktoru*:**
**Hacı Bəkiroğlu**

***ÜNVAN:*** Qardabani şəh. Kolxoz küç, 4
***TEL:*** *(+995) 595 92 25 70*
*599 54 12 92*
***EMAİL:*** *yeni_yol@mail.ru*

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.